# SEVGİNİN QARDAŞLIQ RUHU



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

*(Əvvəli ötən sayımızda)*

Zəlzələ Türkiyənin tarixində dərin iz buraxdı. Həm siyasi, həm də mənəvi tarixində. Ancaq bu təsir təkcə Türkiyə ilə sovuşmadı. Azərbaycan tarixi üçün də Türkiyədə baş verən dəhşətli zəlzələnin yaratdığı təsir bir çox məsələlərin daha da aydınlaşmasında xüsusi əhəmiyyət kəsb etdi. Əlbəttə, 44 günlük savaşda biz Türkiyənin Azərbaycanla nə qədər yaxın olduğunu, Azərbaycanın nə qədər tarixi məsuliyyətini Türkiyənin öz üzərində daşıdığını görmüşük.

30 il böyük tarixdir. Torpaqlarımızı işğaldan azad etsək də və qardaş ölkələrin mənəvi dəstəyi ilə Qarabağı bərpa etsək də, bu, xain düşmən əli ilə vurulmuş yara kimi tariximizdə əbədi qalacaq. Bütün yaralar, əgər belə demək mümkünsə, yaralara səbəb olmuş tarixi hadisələr əslində elə tarixin dərsləri kimi yadda qalmalıdır. Sözüm bunda deyil. Dəfələrlə təkrar etmişəm, bir də deyirəm. Ərdoğanın dövlət başçısı kimi Türkiyənin və böyük türk xalqının təmsilçisi kimi birmənalı mövqeyi dünyanın güc mərkəzlərinin ədalətə qarşı çıxmasına imkan vermədi. Bu bizi qürurlandırır.

Belə olan halda tarixin təbii fəlakətlə bağlı olan dönəmində Azərbaycanın Türkiyənin yanında olmasını xüsusi fərəh hissi ilə qarşılamalı olduğumuz halda bir çox bədxahlar tapıldı ki, buna da narazılıqlarını bildirdilər. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasimindən görüntüləri gözlərimizin önünə gətirək. O, bizim prezidentimiz İlham Əliyevlə necə görüşdü? Bu görüşün yaratdığı auranın dünyanın siyasi mərkəzlərinə hansı mesajlar ötürdüyünü, zənnimcə, ən korafəhim siyasətçilər də yaxşı anlaya bilər. İş elə gətirmişdi ki, həmin məqamlarda Ermənistanın baş naziri Nikol Paşinyan da həmin görüş anında yaxında idi. O da bu mənzərəni müşahidə edirdi. Siyasi prosesləri izləyənlər son bir neçə gündə Ermənistanın siyasi xadimlərinin, analitiklərinin şərhlərində necə dəyişikliklər getdiyini müşahidə edə bilərlər. Bir sözlə, dövlət başçılarının mövqe yaxınlığı, bir-birinə səmimi münasibəti qardaş xalqların da daha çox yaxınlaşmasına, birliyinə xidmət edir.

Azərbaycan prezidenti İlham Əliyev zəlzələnin yaratdığı maddi və mənəvi ağırlığın dəf edilməsində Türkiyənin yanında olacağını qətiyyətlə bəyan edib. Məni sevindirən odur ki, Azərbaycan ziyalıları da bu münasibəti təqdir edir. Azərbaycanın Türkiyənin zəlzələ ağrılarının sağaldılmasında iştirakını birmənalı şəkildə razılıqla qarşılayırlar.

Ədəbiyyat, söz sənəti bütün məqamlarda nəinki siyasi proseslərin istiqamətlənməsinə, bütün təbii iqtisadi kataklizmlərin aradan qaldırılmasına belə təsir göstərə bilir. Bu mənada Azərbaycan və Türkiyə tarixinin indiki dönəmini əsərlərində əks etdirən yazıçılar, şairlər, publisistlər əslində tarixi birliyimizin daha da möhkəmlənməsinə xidmət etmiş olurlar. Beləliklə, son dövrdə yaranan ədəbi publisistik əsərlərin hər biri tarixi yaddaşın mühüm elementi kimi gələcək nəsillərə müəyyən məlumat mənbəyi olaraq tarixi xəzinəyə çevriləcək.

Əli Rza Xələflinin "Türkiyənin zəlzələ ağrıları" məsnəvi poemasının bütün motivləri türk xalqının ruhən sarsıntıdan çıxmasına xidmət edir. Bu əsərin bütün hissələrində elə səmimi müraciətlər var ki, istər-istəməz əsəri oxuyan hər kəsi öz cazibəsinə alır. İnsanları mənəvi birliyi qorumağa səsləyir. Axı insan övladının ən örtüdə qalan təbiət sirləri daha çox çətin məqamlarda üzə çıxır.

Türkiyə üçün dəhşətli zəlzələnin günlərində yazılmış əsərin ruhu ağrıdan keçir. Ancaq bu ağrı öldürücü, sarsıdıcı ağrı deyil. Tarixə güvəncli olduğuna görə, türk tarixinin qədimdən bəri müştərək obrazlarının xatırlanması, yada salınması əslində türkün özünə inamının nəyə qadir olduğunu yada salmaqdır.

Qədim türk tarixi ilə bağlı tarixi şəxsiyyətlərdən gələn mənəviyyat yolunu müəllif ustalıqla Rəcəb Tayyib Ərdoğanın mərdanə xarakteri ilə bağlaya bilir. Biz məmnunluqla razılaşırıq ki, Əlp Ər Tonqadan gələn tarixi-əfsanəvi yol tarixi həqiqətin təmsilçisi olan Ərdoğandan keçir. Bu, bizim qəlbimizi qürurlandırdığı kimi inamımızı da gücləndirir. "Türkiyənin zəlzələ ağrıları" əsərinə əməkdar mədəniyyət işçisi, publisist, naşir Adil Abdullayevin qeydlərində Ərdoğana münasibətin sevgi payı Alp Ər Tonqa ilə müştərək təqdim edilir.

Adil Abdullayev kifayət qədər hazırlıqlı ziyalıdır. O, böyük Turanın əfsanəvi, tarixi yolu haqqında kifayət qədər məlumatlıdır. Elə ona görə də "Türkiyənin zəlzələ ağrıları" əsərini təhlil edərkən bu nüanslara - yəni tarixə söykəniş məqamlarına ayrıca yer ayırır: *"Türkiyənin - Ulu Türkümüzün yetirdiyi böyük tarixi şəxsiyyətləri xatırlamaqla Tayyib Ərdoğanımızı da həm böyük oğulların siyahısına yazır, ardıcılı kimi göstərir. Türkün tarixində Alp Ər Tonqa, Bilgə Xaqan kimi yenilməz bahadırlarımızın bu günkü sultanı sevimli Ərdoğanımızın olduğunu poetik bir dillə rəvan, səlis, axıcı verilməsi də poetik ustalığın, şair yaddaşının ulularımıza ehtiramı kimi səslənir"*. Nə qədər aydın və dəqiq mövqeli münasibətdir. Özü də məqalənin müəllifi əsərdən elə beytləri seçib diqqətə çəkir ki, bədii-estetik təsir oxucunu ahənruba gücü ilə cazibəsində saxlayır. Müəllif yaxşı başa düşür ki, şair Azərbaycanın Türkiyə ocağında necə közləndiyini qəlbindən keçən duyğularla verib. Və o da bu hissləri oxucuya çatdırmaq istəyir. O doğru deyir ki, ulu öndərimizin qeyd etdiyi kimi bir millət, iki dövlətik. Demək, yolumuz da eynidir. Yolumuzun birliyi, möhtəşəmliyi bizi əslində daha aydın sabahlara yönəldir. Əgər biz bu gün Türkiyənin ahına yanmasaq, bu dərdin ağrının qayğısını çəkə bilməsək, onda siyasi yolumuz da birləşə bilməz.

Azərbaycan on milyonluq əhalisi olan bir ölkədir. Məlumdur ki, daha 40 milyonluq əhali fars şovinizminin amansız məngənəsində çırpınmaqdadır. Demək 50 milyondan çox əhalinin ümid yeri şimali Azərbaycandır. Böyük güc mərkəzləri üçün isə 10 milyonluq Azərbaycan kiçik ölkədir. Amma 85 milyonluq Türkiyə ilə gələcəyə birlikdə getmək bu ölkənin əzəmətini, qüdrətini, nəyə qadir olduğunu göstərə bilir.

Adil Abdullayev öz yazısında ulu öndərin yolunu uğurla davam etdirən müzəffər Ali Baş Komandanın adını xatırladan misraları da unutmur. Həmin misraları diqqətə çəkməklə siyasi tariximizin əslində müştərək olduğunu bildirir və bunu uğur motivi kimi yada salır. Maraqlıdır ki, Türkiyənin möhtəşəm lideri Atatürkün adını sevgi ilə çəkir. Ona "Atatürkümüz" deyə müraciət edir. Beləliklə, Ərdoğanı əslində Atatürkün davamçısı kimi görür.

Onu da deyim ki, Ərdoğan andiçmə mərasimindən sonra "Anıtkabır"ı ziyarət etdi. Atatürkün məzarı üstünə gül dəstələri qoydu. Bununla da böyük türk xalqına, tarixə ehtiramını göstərdi. Atatürkə, Atatürk yoluna sədaqətini bəyan etdi. Zənnimcə, Adil Abdullayev əslində "Türkiyənin zəlzələ ağrıları" poemasına güvənclə böyük Türkiyəyə öz yazısı ilə sevgisini də ehtiva edir. Bu sevginin yox yerdən yaranmadığını, bu sevginin tarixdən gəldiyini və şübhəsiz, elə tarix boyu da davam edəcəyini bildirmək üçün "Atatürkümüz" deyə böyük türk liderinə münasibət bildirir. Azərbaycan xalqının qüdrətli oğlu, Ali Baş Komandan İlham Əliyev, şübhəsiz, xalqımızın sevgisini qazanıb. Böyük qələbə ilə bu sevginin əbədi yaddaşlarda qalacağını təmin edib. Məhz elə bu səbəbdən də İlham Əliyev və Ərdoğan qardaşlığının necə böyük əhəmiyyət kəsb etdiyini əsərdən aldığı təəssüratla bildirir: *"Daha sonra Atatürkümüzün yolunu uğurla davam etdirməsi göz önünə gətirilir:*

*Atatürksən sevgində... ucasan Tanrı boyu,*
*Ulu Öndər əzmində İlhamın Vətən soyu...*

*Dünən Atatürk vardı - Türkiyəmizin xilaskarı kimi yaddaşlarda - ürəklərdə sevgi heykəlinə dönübdü. Yaxın keçmişdə Heydər Əliyev vardı - Azərbaycanımızın xilaskarı kimi ümumxalq məhəbbəti qazanaraq, ürəklərə köçüb.*

*Bu gün iki böyük türk övladının, iki böyük şəxsiyyətinin biri Türkiyənin başqanı Ərdoğandır!*

*Bu gün Azərbaycanın Prezidenti İlham Əliyev ölkəmizin fateh bir oğlu kimi, Ali Baş Komandan kimi xalqımızın sevgisini qazanıb...*

*Və bu yerdə müəllifin Tayyib Ərdoğanın kimliyini poetik dillə göstərən daha bir beytini verək:*

*Türkün qədim yolundan, əski çağından gəldin,*
*Sanarsan Göy üzündən - Tanrı dağından gəldin.*

*Göy insanları, Allahın da sevimlisi olurlar. Bu mənada İlahinin Türkə rəhbər kimi Təyyub Ərdoğanı göndərməsi, onun seçilmişlərdən olmasının əlamətidir. Belə insanlara isə övliya deyirlər!"*. Sözün həqiqi mənasında bu cümlələri oxuyanda kövrək hisslər, səmimi duyğular mənim də qəlbimizi çulğaladı. Ərdoğan Azərbaycan sevgisi ilə bizə bir övliya təsiri bağışladı. Onun yolunun duruluğu, aydınlığı özünün ruh sağlamlığından irəli gəlir. Türkiyənin indiki dönəmində, Azərbaycanın indiki zamanında Ərdoğanın təkcə Türkiyə üçün yox, bütövlükdə Turan üçün lider olması bizim necə böyük bir güvəncə arxalandığımızın sübutudur.

Adil müəllimin Ərdoğanın ünvanına duyğulu münasibəti əsərdən qaynaqlanır. Ancaq onun özünün də qəlbində Türkiyəyə və onun liderinə sonsuz sevgisi də unudulmur. Poemanın müəllifi Ərdoğan üçün "bizim hər birimizin ürəyində onun evi var" deyir. Eyni zamanda bu evin bütövlükdə elə Qarabağ olduğunu da xatırladır: *"Xalqımızın sevimli övladı Tayyib Ərdoğanın Şuşaya gəlməsini fəxrlə, qürurla verən müəllifin səmimiyyətlə dediyi-yazdığı bir beytə baxaq:*

*Sultanım, Şuşa sənə qucaq açdı, sevindi,*
*Qarabağda hər ürək sənin doğma evindi...*

*Qarabağda hər ev evindi, deyil, «hər ürək doğma evindi» misrası Türk dünyasının böyük oğluna olan məhəbbətin miqyasını böyüklüyünü ustalıqla verən müəllifə də təşəkkür dolu minnətdarlıq düşür"*. Bu sətirləri oxuyanda Adilin özünün də təbiətinə minnətdarlığımı bildirməyimi vacib hesab edirəm. Çünki tarixi həqiqəti ziyalılar deyəndə, təsdiq edəndə tarix daha inamla böyük həqiqətləri yaddaşında saxlaya bilir. Şuşanın tarixi obrazı var. Pənahəli xan, İbrahim xan, Xurşudbanu Natəvan bu obrazın ən xarakterik cizgiləridir. Adil məhz Ərdoğanı və İlham Əliyevi Şuşanın tarixi obrazının ən qüdrətli atributları kimi diqqətə gətirir.

A.Abdullayev publisist kimi öz yazısında ona görə uğura imza atıb ki, qeydlərini səmimiyyətlə qələmə alıb. Hansı təəssüratla düşünbsə, elə o təəssüratla da yazıb. Qeydlər istər-istəməz şeirin poetik ruhuna qovuşur. Bədii əsərin məziyyətləri A.Abdullayevin publisistikasında da təzahür edir. Bəli, Qarabağda hər ev sənin evindir - deməklə uzaq gələcəyin insanlarına sanki heç vaxt unudulmayacaq könül duyğularını çatdırır.

*(Davamı 11-ci səhifədə)*

# SEVGİNİN QARDAŞLIQ RUHU

*(Əvvəli 10-cu səhifədə)*

Bir də qayıdıram zəlzələ amilinə. Axı dedim ki, insanlar dəhşətli məqamlarda, sarsıntılı çağlarda daha çox birləşə bilirlər. Adil Abdullayev də dəhşətli zəlzələnin yaratdığı sarsıntılarla bir-birinə əl uzadan bir millətin, iki dövlətin mənəvi mühitindəki doğmalığı "Türkiyənin zəlzələ ağrıları"nda ifadə olunan həssas emosionallıqla birgə qavrayır: *"Sarsıntılı, ağır nəticəli bu faciənin tək Türkiyə üçün deyil, Azərbaycan Türkünə də böyük ağrılar yaşatdığının lövhəsi kimi iki misraya baxaq:*

*Səninlə bir gedirik tarixin sabahına,*
*Səninlə bir yanırıq Türkiyənin ahına...*

*Azərbaycanın qardaş Türkiyə başqanına böyük siyasətçi, Türk dünyasının qüdrətli övladına poetik qiymət verən şair qürurundan doğulan bir beytə baxaq:*

*Sultanım, Ərdoğansan, yerində, ərkanında,*
*Seçimlərin tacısan istəklər məkanında.*

*Azərbaycanın da sevimli övladı sayılan Ərdoğanın Ulu Öndər Heydər Əliyevlə qardaşlığı iki misrayla - beytlə dolğun verilir:*

*Quruluş Osman qazi... Diriliş Ərtoğrulsan,*
*Ulu Öndər yoluna doğma qardaş oğlusan...*

*İstedadlı qələm dostumuz Əli Rza Xələfli «Türkiyənin zəlzələ ağrıları» dastanı ağrılarla, ürək yanğısında qələmə alınıb. Amma bu böyük kədərin içində, gələcəyə daha böyük ümid, inam görünür. Belə yanaşmanın bir adı poetik təlqin, inandırmaq insaflılıqdır"*. Müəllif məqaləsində bir həqiqəti təkrar-təkrar qeyd edir. "Türkiyənin zəlzələ ağrıları"nın müəllifi əsəri ürək yanğısı ilə qələmə alır. Bu yanğı, bu motiv bütün hallarda insanlıqdan irəli gələn meyarlara güvənir. Müəllifin tarixi faciəyə yanaşması nə qədər sevgidən, humanist duyğulardan qaynaqlanırsa, məqalə müəllifinin də münasibəti elə həmin duyğulardan güc alır.

Adil Abdullayev naşirdir, özü də görkəmli naşirdir. El içində deyildiyi kimi başının tükü sanı kitablar nəşr edib. Kifayət qədər tarixi yolu olan "Gənclik" nəşriyyatının baş direktorudur. Bəlkə başqa kitablar haqda da çox yazılar yazıb. Amma Əli Rza Xələflinin "Türkiyənin zəlzələ ağrıları" əsəri haqqında qeydlərini sadəcə publisistik düşüncələr kimi yazmayıb. Qəlbində, ruhunda oxuduğu nəğmə kimi qələmə alıb. Bu da onun mövzu ilə tam ürəkdən bağlılığından irəli gəlir. Son sətirlərini də elə nəğmə kimi oxucuya təqdim edirəm: "*Dastanın sonluğu, sondan əvvəlki beytdə yenə də, xalqımızın dili bir, qanı bir, dini bir böyük sərkərdəsinə üz tutulur və sonda Türkün çırağının əbədi yanaraq, istəməyənlərə göz dağı olacağını inamla deyir:*

*Sultanım, əyilmə sən, əyilməz Tanrı dağı,*
*Yağılara göz dağı - sönməz Türkün çırağı...*

*...İlkin yaradılışdan bu günə kimi Türkün yanan gur ocağı, nur şöləli çırağı, nə qədər dünya var, kainat var, insan nəsli - bəşəriyyət var, bir o qədər zamanda - müddətdə yanacağına inamlıyıq..."*. "Türkiyənin zəlzələ ağrıları" məsnəvi-poemasının mahiyyətinə varmaq üçün əsərdə vəsf olunan obrazları qavramaq, həmin obrazların türkoloji düşüncədə tutduğu yeri dərk etmək və nəhayət, türkün mifoloji yaddaş baxımından yaranış yoluna nəzər salmaq bəs edir ki, Turanın tarixi-mənəvi sərhədlərini bütün aydınlığı ilə dərk edəsən. Zənnimcə, Adil Abdullayev müvafiq qeydləri ilə Türkiyənin zəlzələ ağrılarına münasibət bildirərkən türkün tarixi taleyinə sevgisini elə yaranışdan üzü bəri gələn yol boyu istər real, istər qeyri-real hadisələrlə uzlaşdırır. Əsərdə böyük türk sevgisi var. Tanınmış ədəbiyyatşünas alimlər Ərdoğanı könüllərin fatehi adlandırır. Bu əsəri də bir sevgi məktubuna bənzədirlər. Zənnimcə, Adil Abdullayev də öz qeydlərini elə sevgi motivləri ruhunda yazıb. Nəhayət, onu da qeyd etmək istərdim ki, "Türkiyənin zəlzələ ağrıları" əsəri hələ uzun zaman diqqətə çəkiləcək. Ən azı, Türkiyə zəlzələsi ilə bağlı tarixi dönəm yada düşdükcə insanların mənəvi mühitində bu zəlzələnin əks-sədası da xatırlanacaq və deməli, Əli Rza Xələflinin "Türkiyənin zəlzələ ağrıları" əsəri də hər bir zamanın özünə görə şərh olunacaq. Türk ruhuna sevgi motivləri təhlil ediləcək. Nəticədə, türk ruhunun nəinki siyasi kataklizmlərə qalib gələcəyi, hətta təbii sarsıntılar qarşısında da öz əzmini qoruyacağı haqqında inama yardımçı olacaq.

* * *

Mən qeyd etim ki, "Türkiyənin zəlzələ ağrıları" poeması müxtəlif müəlliflər tərəfindən elə yazılan kimi diqqəti cəlb etdi. Bu əsər haqqında müxtəlif mülahizələr yazıya alındı. Ayrı-ayrı humanitar elm mərkəzlərində diskussiyalara çevrildi, müzakirə mövzusu oldu.

Ədəbi kluarlarda olan söhbətlərdən məlum olur ki, "Türkiyənin zəlzələ ağrıları" poeması AMEA-nın Ədəbiyyat İnstitutunda, eləcə də, Pedaqoji Universitetin müvafiq kafedrasında ədəbi müzakirəyə cəlb edilib. Ayrı-ayrı mütəxəssislərin əsərin janrı ilə bağlı mübahisələri, müxtəlif mövqelərdən yanaşmaları göstərir ki, əsər təkcə günümüzün real hadisəsi ilə bağlı deyil. Həm türkün tarixi taleyi baxımından maraqlıdır, həm də insan və təbiət hadisəsinə münasibət baxımından diqqəti çəkəndir.

Əsərin "Kredo" qəzetində dərc olunmasından az keçməsinə baxmayaraq, müxtəlif tərəflərdən yazıraylər işıq üzü gördü. Mənim üçün çox maraqlı yazılardan bir neçəsinin adını çəkə bilərəm: Əli Bəbiroğlunun "70 illik milyon il", Şakir Əlifoğlunun "Türkiyənin zəlzələ ağrıları" adlı yazıları və eləcə də, digər sosial şəbəkə ünvanlarında işıq üzü görən ədəbi qeydlər göstərir ki, bu əsərin düşüncələrdə bu qədər qızğınlıqla əks-səda verməsi təsadüfi deyil. Mən burada ədəbiyyatşünas Əli Bəbiroğlu imzası ilə dərc olunan yazıya diqqəti çəkmək istərdim. Doğrusu, bu müəlliflə mən şəxsən tanış deyiləm. Ancaq yazını oxuyandan sonra hiss etdim ki, müəllif kifayət qədər mövzuya hazırlıqlıdır. Ən başlıcası, yüksək ədəbi zövq sahibi olduğunu öz qeydlərində göstərə bilib. Məqalənin adı kifayət qədər diqqət çəkəndir: "70 illik milyon il". Nədənsə, mənim yaddaşımda "Eramızdan milyon il əvvəl" adlı filmin motivləri canlandı. Demək, ədəbi düşüncə incəsənətlə insanların təfəkkürünə təsir etmək istəyən mütəfəkkirlər məcazi mənada eramızdan milyon il əvvəlki insanın da təbiətində humanizmin aparıcı güc olduğunu göstərir. Yazıçı, tədqiqatçı Əli Bəbiroğlunun da "Türkiyənin zəlzələ ağrıları" adlı əsəri ilə bağlı qeydlərinin girişi məhz həmin düşüncəni diqqətə gətirir: *"Ulu Türkün anlamına görə təbiət ölmür, o dağda, daşda agacda, çiçəkdə, yarpaqda yaşayır. Türk insanı təbiətdə özünə həmişəyaşarlıq qaydaları yaradır və onu Tanrı dağında tapır. Tanrı inancı Türkün yerlə - göy rabitəsinin sağlam özüllər bağlığını yaradır və ona günümüzün ən qüdrətli xalqları sırasında daimilik KİM-liyini verir.*

*Min illik, milyon illik Türkün Tanrı dağından yazan şair Rüstəm Behrudi öz yanaşma tərzini; "Səni mən əkmişəm" iddiasını ortalığa qoyur və bir cox dünya xalqlarının mifik təsəvvüründə özünə yer alan Həyat ağacının, yarpağın, çiçəyin ölməzliyi həqiqətlərini Əmir Teymurla "Dar ağacı" fonunda söhbətləşir, Salam verib, Əleyküm - Salamını alır.*

*Min illik, milyon illik ruhun ölməzliyi anlamını şair Vaqif Bayatlı Odər Məsihiçilik, Mehdiçilik cərəyanları fonunda İsa peyğəmbərin çarmıxa, "Dor ağacına" çəkilməsinə gülür və Allahın Musa peyğəmbərə müraciətlə dünya həyatı üçün dediyi; "Sən məni əbədən görə bilməzsən!" nidasını "Sən görünürsən, İlahi" mərtəbəsinə yüksələn insanın Allahla görüşünə sevinir və Ulu Türkün yerlə - göy rabitəsində yaratdığı ölümsüzlük inancını təsdiqləyir"*. Əlbəttə, burada ümumi qeydlərlə ruhun ölməzlik yolunun istinadları diqqətə çəkilir. Bir sözlə, həqiqət uğrunda mübarizənin motivi son ucu ölümlə bağlı olsa belə, aparıcı güc kimi təqdim olunur. Doğrudan da, həqiqət uğrunda mübarizə axı son nəticədə məğlubiyyətə səbəb ola bilməz. Ölümlə nəticələnsə də.

Bu qeydlərdə biz mistik əhval da duyuruq. Hətta müəllif mistik düşüncəni müasir poeziyanın aparıcı obrazlarından biri kimi Vaqif Bayatlı ilə də maraqlı şəkildə uzlaşdırır. Əlbəttə, bütün bunlar müəllifin öz qeydlərinə yol açması üçün istinad etdiyi düşüncələrdir. Əsas odur ki, müəllif Əli Rza Xələflinin "Türkiyənin zəlzələ ağrıları" adlı əsərinin sarsıntılı hissin təsiri altında yazıldığını yox, onun ümumi dünyagörüşünün bəhrəsi olduğunu diqqətə çəkir.

Müəlif Əli Bəbiroğlu sözün həqiqi mənasında real həyati faktlara əsaslanır. "Türkiyənin zəlzələ ağrıları" əsərinin yazılması üçün təkcə zəlzələni şərt hesab etmir. O, bu əsərin yazılması üçün Şuşa bəyannaməsinin tarixi həqiqət gücündən ilham alır. Ən başlıcası, artıq Turan dünyasının "Rəis" deyə hörmətlə adını çəkdiyi Ərdoğanın kimlik motivi əsas götürülür: *"Min illik, milyon illik Türkün ölməzlik iksirinin sirlərini şair Əli Rza Xələfli də günümüzün reallıqları fonunda Türk elindən, Allaha ən yaxın yerdən, Şuşamızın Cıdır düzündən; Tanrı - Turan dağından dünyaya yayır və "Bir ananın iki oğlu"ndan, dövlətçiliyimiz üçün hava kimi, su kimi vacib olan bir missiyadan; Azərbaycan - Türkiyə qardaşlığı və birliyindən yazır.*

*Ulu Türkün yaşam anlamı bolluq, bərəkət gətirən dansökülənddən, gündoğandan başlayırdı, bu həm də təbiət tanrısına ibadət sayılırdı. İndi ortalığa düşən haqsız millətlər var ki, dünyanı toranlığa, qaranlığa çəkirlər. Bazar başında oturan şeytani dövlətlər dünyanı çox pis qarışdırırlar, dünya ağıla - xəyala gəlməyən nəticələrlə üz-üzədir"*. Müəllif son dərəcə



dünyanın qarşılaşdığı mənzərə ilə tarixi həqiqəti müqayisəyə çəkir. Bu, Türkiyədə də son vaxtlar tez-tez işlədilən bazar ifadəsinin yaratdığı təəssüratla tam uyğun gəlir. Yəni, bütün bazarlardan mənəvi məkan daha üstündür. Bizim sevgi ilə ünvan tutduğumuz obraz, yəni Ərdoğan obrazı ona görə üstündür, ona görə güclüdür ki, o bütün situasiyaların rəisidir. Məhz bütün situasiyalar istiqamətini onun tendensiyasından alır. Müəllif qardaşlıq duyğuları ilə iki dövlətin arasındakı münasibətdə rəisin yerini dəqiq göstərir və nəhayət, Əli Rza Xələfliyə müraciətlə öz düşüncələrində dəqiq və israrlı olduğunu göstərir: "*Qardaşın - qardaşa ən lazımlı vaxtında, vaxtın ən lazımlı zamanında hamının "RƏİS" deyə tanıdığı, qardaş Türkiyə prezidenti R.T.Ərdoğan cənabları "Azərbaycanı tək qoymayacağıq"- mesajını verir;*

*Qətiyyətin yol açır Türkün Tanrı dağına,*
*İradən işıq saçır Turanın bayrağına...*

*Hörmətli Əli Rza müəllim, min illik, milyon illik türk tariximizdə sizin də 70 illik öz şərəfli imzanız vardır. Siz hər zaman doğru gördüyünüz işdə, haqq bildiyiniz yoldasınız. Dağları, yaylaqları, qışlaqları özünə məskən salan qədim Türkün azad ruhu kimi həmişə yazıb-yaratmaq eşqində, həmişə səfərdəsiniz, Ay kimi, Gün kimi hamıya hər gün lazımsınız. "Türkiyənin zəlzələ ağrıları" müdrik qələminizin və qəlbinizin Ərdoğana və Türkiyəyə təskinlik üçün yarıqəm - yarıqürur dastanınız hər bir vətəndaşımızın ürək göynərtisi, qəlb sarsıntısını ifadə edir:*

*Acısı sinə yaxır, "su" deyə inləyənin,*
*Ümidi solub gedir sükutu dinləyənin.*
*Azərbaycan bu dərdin ocağında közlənir,*
*Türkiyənin yanğısı varlığımda sözlənir.*

*Obrazlı ifadə etsək, doğrudan da Azərbaycan bütün şəxsi heyəti ilə özünü dağıntılar altına atmışdı, bu, bir yandan Türk xalqına olan məhəbbətimizdirsə digər əsas məsələ isə Ərdoğana olan sonsuz sevgimizdən irəli gəlir"*. Dünyanın tarixində bəxt anlamının da mövcud olduğunu bu və ya digər dərəcədə insanların düşüncəsində bu mistik hökmün də hakim olduğunu unutmaq olmaz.

*(Davamı var)*